**Samux rayonunda seminar-müşavirə keçirilmişdir**

Gəncədəki 12 saylı Ərazi Vergilər İdarəsi Samux rayonunda «Əmək münasibətlərinə vergi nəzarəti» mövzusunda seminar-müşavirə keçirmişdir. Tədbirdə sahibkarlıq fəaliyyətində vergidən yayınma hallarının qarşısının alınması, işəgötürənlə işçi arasında əmək müqaviləsinin bağlamasının əhəmiyyəti, işçilərin əmək hüquqlarının pozulması, onların gələcəkdə dövlət sosial təminatında yaranacaq problemlər və sair mövzularda müzakirələr aparılmışdır. Seminar-müşavirədə sahibkarları maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılmış, suallar cavablandırılmışdır.